Hürriyyət

№21 (3360) 24 İyun / 2025-ci il

www.hurriyyet.az; / hurriyyet@mail.ru



# Əsgər imtahanı

**Ehtiyatda olan tibb xidməti mayoru, hərbi həkim, şair İlham Şəbiyev 1977-ci ildə Bakı şəhərində anadan olub. O, Azərbaycan Tibb Universitetini bitirib.**

**Füzuli, Laçın, Kəlbəcər rayonlarında xidmət edib. Şeirlərini dəfələrlə ədəbi-bədii məclislərdə, şəhidlərin anım günlərində, dövlət tədbirlərində, eləcə də Türkiyə Cümhuriyyətində dəfələrlə televiziya proqramlarında səsləndirib. Şeirləri Türkiyə qəzetlərində çap olunub. Şairin bir neçə şeirini oxuculara təqdim edirik:**



*Əsgər verir imtahan*
*Müəllimi Vətəndir*
*Keçirərmi həyəcan?*
*Bir hədəfi düşməndir*

*Onun dəftəri meydan*
*Qələmidə silahdır*
*Gözün çəkmir yurdumdan*
*Düşmən gözü tamahdır*

*Torpaq verib qiymətin*
*Əsgər qədri biləndir*
*İtirmir əziyyətin*
*Ümid yeri - Vətəndir*

*Sənin gözün ayıqdır*
*Orda yuxu görünmür*
*Ayaq izin qalıbdır*
*Bil ki, Vətən bölünmür*

*Deyir himnini əzbər*
*Torpaqa bayraq sancan*
*Hər bir söyləyən əsgər*
*Sevir Vətən doyunca*

*Bundan gözəl anmı var?*
*Əsgər əlində bayraq*
*Bil, üstün bayrammı var?*
*Qürurlanmazmı torpaq?*

*Sənin qazancın uğur*
*Vətənə sevgin həzin*
*Torpaq yetirir oğul*
*Vətənpərvər körpəsin*

*Ana - Vətən kəlməsi*
*Ürəyindən gələndir*
*Əsgərin sevinməsi*
*Vətənə qələbəndir*

* * *

## VƏTƏN TORPAĞI

**Odlar Yurdu Vətənin**
**Hər qarışı gözəldir**
**Əsgər keşiyin çəkir**
**Torpaq, daşı gözəldir**

**Şəhid qanı dəyibdir**
**Torpaq olub pak, təmiz**
**Vətən qəhrəmanları**
**Budur bizim sevgimiz**

**Anam layla çalanda**
**Vətən zümzüməsi ilə**
**Vətən bağrına basır**
**Bizi od nəfəsi ilə**

**Bəsdir, ey yağı düşmən**
**Dikmə göz bizim yurda**
**Sizin Vətən olmayıb**
**Vətən bizimdir burda**

**Vətən övladı olmaq**
**Qismət olmur hər kəsə**
**Azərbaycan Vətəndir**
**Bunu danmasın kimsə**

**Sinəmizdə bir ürək**
**Çırpınırsa ey, Vətən**
**Bil bu sənin üçündür**
**Qürbətdə olsam da mən**

**Azərbaycan adını**
**Səsləndirəndə hər kəs**
**Bu söz ürək titrədir**
**Olur aldığım nəfəs**

**Yaşasın Azərbaycan**
**Üçrəngli bayrağınla**
**Qəhrəman yetirən**
**Qüdrətli torpağınla**

* * *

## Danışan torpaq

*Nə yaxşı gəldin çıxdın*
*Azərbaycan əsgəri*
*Mən sənin üçün darıxdım*
*Mübarəkdir səfərin*

*İllərdir məndə gəzir*
*Zalım düşmən ayağı*
*Gör canım necə dözür*
*Sızlayır daşım, dağım*

*Kimdir axı o, düşmən?*
*Oxur bizim mahnını*
*Olacaqsan sən peşmən*
*Görəcək dünya bunu*

*Axı düşmən nə bilsin?*
*Nədir təsnif - nədir şur?*
*Əzəldən torpaq bizim*
*Sən oğrusan - sən quldur*

*Cıdır düzündə yallı*
*Bizim rəqsi oynayıb*
*Sən olmusan zavallı*
*Yoxdur səndə ar, ayıb*

*Torpaqda gəzdin arsız*
*İçdin sən bizim suyu*
*Sənin yazın baharsız*
*Yoxdur səndə hiss, duyum*

*Yedin bizim çörəyi*
*Oğurladın mətbəxi*
*Səni tamam silmədik*
*Onda gətirdi bəxtin*

*Gəl sataşma birdə sən*
*Baha gələr bu başa*
*Yenə sənə dərs versək*
*Dünya edər tamaşa*